El futuro es de todos | Cancillería Embajada de Colombia en Azerbaiyán

# KOLUMBİYA BÜLLETENİ

№1 | Kolumbiyanın Azərbaycandakı Səfirliyi | İyul, 2020-ci il

# İki yüzillik Müstəqilliyinin Yubileyi çərçivəsində KOLUMBİYA MİLLİ GÜNÜNÜ QEYD EDİR

## Cənab Səfir Luis Antonio Dimate Kardenasın müraciəti

Əziz dostlar,
1810-cu ilin 20 iyul tarixində başlayan və 9 il sonra Boyaka döyüşü ilə ölkəmizin azadlığının əbədi olaraq möhürləndiyi bu mötəbər tarixdə sizləri salamlamaqdan böyük şərəf hissi duyuram.

Məhz bugün bizə bu azadlığı qazandıran və özlərini qurban verərək böyük və suveren bir dövlətin əsaslarını yaradan qəhrəmanlarımızı yad edirik. Həmin o qəhrəmanlıq şücaətlərindən düz iki əsr keçir. O iki əsrlik əmək və səylər bizləri bugün gələcəyə daha nikbin bağmağa şərait yaradır.

Bugün Kolumbiya: güclü və sabit iqtisadiyyatı olan; sülhə, demokratiyaya, insan hüquqlarına və dayanıqlı inkişafa sadiq; öz xalqının rifahı və tərəqqisi üçün Prezident İvan Duke tərəfindən irəli sürülən qanunçuluq, təşəbbüskarlıq və bərabərlik prinsiplərini rəhbər tutaraq bütün öhdəlikləri layiqincə həyata keçirən bir dövlətdir.

Bugün Kolumbiya beynəlxalq arenada get-gedə daha da fəal rol oynayan, əməkdaşlığa öz tohfəsini verən və təşviq edən və digər ölkələr ilə dostluq və həmrəylik əlaqələrini daha da möhkəmləndirməyə çalışan bir dövlətdir. Dost ölkə olan Azərbaycanla mükəmməl siyasi dialoqdan əlavə, ticarət, mədəni, təhsil və digər sahələrdə getdikcə dərinləşən münasibətlərimizdə son illərdə qazandığımız uğurlu nailliyətlərimiz buna bariz nümunədir.

Kolumbiyanın Azərbaycandakı ilk Səfiri olaraq, bu qardaşlıq əlaqələrinin bundan sonra da möhkəmlənməsinə qətiyyətlə sadiqəm. Səfirlikdəki həmkarlarım və eyni zamanda, bugün bizə ev sahibliyi edən bu gözəl ölkənin inkişafına öz fəaliyyəti və zəhməti ilə xidmət edən burada yaşayan həmvətənlərim məni bu uğurlu yolda müşayiət edirlər.

Bu ilki milli yubileyimizi fiziki olaraq həyata keçirə bilməsək də, mövcud sağlıq böhranının ortasında qeyd edirik. Buna baxmayaraq, əminəm ki, çətinliklərdə daha çox qüvvə ilə ortaya çıxan həmrəylik ruhu ilə qardaş xalqlar olaraq daha güclü və möhkəm şəkildə bu vəziyyətdən çıxmağa nail olacağıq.

Kolumbiyanın Prezidenti İvan Duke və Xarici İşlər Naziri Klaudia Blumun Azərbaycan xalqının tərəqqisi və rifahı, və həmçinin, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıran dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə dair ən xoş arzularını Azərbaycan Hökumətinə bir daha çatdıraraq sizlərə müraciətimi bitirirəm.



**Zati-aliləri cənab Prezident, İlham Əliyev ilə Etimadnamənin təqdim edilməsi üçün rəsmi görüş**

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri, cənab Ceyhun Bayramovun öz həmkarına təbrik məktubu

Zati-aliləri,
Kolumbiya Respublikasının Müstəqillik Günü münasibətilə ölkənizin və xalqınızın daha da inkişafı üçün ən səmimi təbriklərimi və ən xoş arzularımı bildirmək istəyirəm. Əminəm ki, qarşılıqlı anlaşmaya, habelə dövlətlərimizin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığına hörmətə əsaslanan Azərbaycan ilə Kolumbiya arasındakı mövcud ənənəvi dostluq və tərəfdaşlıq gələcək illərdə daha da möhkəmlənəcəkdir. İnanıram ki, nazirliklərimiz arasında əməkdaşlıq həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatlar çərçivəsində genişlənəcəkdir. Zati-aliləri, ən yüksək ehtiramımı izhar edərək bir daha ölkənizə xoşbəxtlik, əmin-amanlıq və firavanlıq diləyirəm.

### Azərbaycan Respublikası Milli Məclisinin Sədri xanım Sahibə Qafarovanın öz həmkarına təbrik məktubu

Sizi va Sizin simanızda dost Kolumbiya xalqını bu yubiley ilində geniş miqyasda qeyd edilən milli bayraminiz — Kolumbiya Müstəqillik Günü münasibətilə şəxsən öz adımdan va Milli Məclis üzvləri adından səmimi qəlbdən təbrik edirəm.

Sevindirici haldır ki, Azərbaycan ilə Kolumbiya arasında dostluq münasibətləri günümüzdə də yüksələn xətt üzrə inkişaf edir. Əminəm ki, qanunvericilik orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığı bundan sonra da dövlətlərimiz va xalqlarımız arasında mövcud olan dostluq münasibətlərini dərinləşdirməyə öz töhfəsini verməyə davam edəcəkdir.

Hörmatli həmkar,

Fürsətdən istifadə edərək, bu əlamətdar gün münasibətilə Sizi bir daha təbrik edir, möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar, dost Kolumbiya xalqına əmin-amanlıq və firavanliq arzulayıram.

### Parlamentlərarası İşçi Qrupunun Sədri cənab Muşfiq Cəfərovun öz həmkarına təbrik məktubu

Fürsətdən istifadə edərək, Azərbaycan-Kolumbiya Parlamentlərarası İşçi Qrupunun üzvləri adından və şəxsən öz adımdan Sizi və dost Kolumbiya xalqını Kolumbiyanın Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Xüsusi vurğulamaq lazımdır ki, dost Kolumbiya ilə mövcud əlaqələrin müxtəlif əməkdaşlıq sahələrində, o cümlədən parlamentlərarası əməkdaşlığın hərtərəfli inkişafı bizim üçün çox vacibdir. Bununla əlaqədar, əminəm ki, qanunverici orqanlarımız arasında qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsi dövlətlərimiz və millətlərimiz arasında mövcud dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcəkdir. Və biz Parlamentlərarası İşçi Qrupu olaraq bundan sonra da bu əməkdaşlığı dərinləşdirmək əzmindəyik.

# KOLUMBİYA-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ

**Hər Sahədə Daha da Möhkəmlənən** **1993** **-cu ildən bu yana**

2014

## Kolumbiya Səfirliyinin açılışı

Hər iki ölkə arasında münasibətlərin dərinləşməsində irəliləmək üçün 2014-cü ildə müvəqqəti işlər vəkili səviyyəsində Bakı və Boqotada diplomatik nümayəndəliklər açıldı. Elə həmin il Kolumbiya iki ölkə arasında turizm asanlaşdırmaq və iki ölkəni bir-birinə yaxınlaşdırmaq üçün dostluq əlaməti olaraq Azərbaycan vətəndaşları üçün viza rejimini ləğv etmişdir.

## Bakıda ilk Səfirin təyin edilməsi

20 may 2019-cu ildə Kolumbiyanın Azərbaycandakı ilk səfiri kimi Bakıda fəaliyyətinə başladı. Prezident İvan Dukenin diplomatik nümayəndəliyi səfir səviyyəsinə qaldırması qərarı ilə Kolumbiya, iki ölkə arasındakı əlaqələri səciyyələndirən əməkdaşlıq və səmimi dialoqun davamlı şəkildə möhkəmlənməsinə sadiqliyini bir daha təsdiqlədi.

2019

Yeni və müxtəlif əməkdaşlıq formalarını araşdırmağa təkan vermək məqsədilə Sakit Okeanı Alyansındakı tərəfdaşları ilə birlikdə 2019-cu ilin iyul ayında Kolumbiya Azərbaycanı bu vacib regional təşkilata yeni müşahidəçi ölkə qismində daxil olmağına dəstək oldu.

13 dekabr 1993-cü ildə Kolumbiya ilə Azərbaycan arasında ilk diplomatik münasibətləri qurulmuşdur. O vaxtdan bəri iki ölkə qarşılıqlı hörmət və əməkdaşlığa əsaslanaraq ikitərəfli münasibətləri yüksək səviyyədə davam etdirir. 2019-cu ilin dekabr ayında bu əlaqələrin qurulmasının 25-ci ildönümünü Azərbaycan Mədəniyyət Nazirliyinin və məşhur xalq artisti, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru Tərana xanım Muradovanın dəstəyi ilə hər iki ölkəyə məxsus rəqs nümunələri Azərbaycan Dövlət Filarmoniyasında mədəni tədbir çərçivəsində qeyd edilmişdir.



Səfir Dimate 2019-cu ilin dekabr ayında o vaxtkı Təhsil Naziri və indiki Xarici İşlər Naziri cənab Ceyhun Bayramovu ziyarət etdi.

Səfirliyimiz Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Ceyhun Bayramovu salamlayır və müvəffəqiyyətlər arzulayır. Bunun ilə yanaşı, Kolumbiya və Azərbaycan arasındakı mövcud əlaqələrə birlikdə çalışaraq yeni bir təkan vermək üçün bütün dəstəyini bir daha vurğulayır.

## İkitərəfli gündəliyimizin dərinləşməsinə və şaxələndirilməsinə həsr olunmuş bir il

İki tərəfli münasibətlərimizin əhəmiyyətini qiymətləndirərək, siyasi, iqtisadi və mədəni agendamızı zənginləşdirmək üçün imkanları dəyərləndiririk. Texniki əməkdaşlığın vacib əhəmiyyətini dərk edərik və 2018-ci ildə başlamış Kolumbiyada yetişən olan Azərbaycan narları layihəsinin uğurlu təcrübəsinə əsaslanaraq kənd təsərrüfatında yeni bilik mübadiləsi sahələrini araşdırırıq. 2013-cü ildən bəri hər iki ölkənin Xarici İşlər Nazirlikləri tərəfindən hazırlanan əməkdaşlıq proqramı çərçivəsində, bu il artıq Dövlət qulluqçuları üçün VIII ispan dili kurslarını həyata keçirəcəyik.

Və bu istiqamətdə Sakit Okeanı Alyansındakı tərəfdaşlarımızla birlikdə nəinki bütün imkanlarımızı bölüşmək, hətta Azərbaycanla gündəliyimizin dərinləşməsinə və şaxələndirilməsinə olan marağımızı da davam etdirəcəyik.

2020



Kolumbiyanın Xarici İşlər Naziri xanım Klaudia Blum

Xarici İşlər Naziri Klaudia Blum Azərbaycan Hökumətini Milli Günü münasibətilə təbrik məktubunda hər iki xalqın rifahı və tərəqqisi naminə, turizm, mədəniyyət və təhsil sahələrinin, və həmçinin, siyasi və iqtisadi əlaqələrimizi möhkəmləndirməyə davam etməkdə Kolumbiya Hökümətinin xüsusi marağını vurğuladı.

# KOLUMBİYA - SABİT, DİNAMİK VƏ İMKANLAR İLƏ DOLU BİR ÖLKƏ



Kasa de Narinyo – Prezident İqamətgahı

İki əsrlik respublika həyatı Kolumbiya demokratiyasını möhkəmləndirməyə və güclü bir institusional inkişaf etdirməyə imkan verdi, bununla da böyük çətinliklərin öhdəsindən gəlmək və sosial və iqtisadi məsələlərdə mühüm nailiyyətlər əldə etmək mümkün oldu.

2016-cı ildə imzalanan Sülh Sazişi və Prezident Dukenin Hökumətinin Qanunçuluqla sülh siyasəti çərçivəsində həyata keçirilməsinə bağlılığını, habelə mövcud rəhbərliyin qanunçuluq, sahibkarlıq və bərabərlik prinsiplərinə əsaslanan müxtəlif siyasətləri vacib irəliləyişlərin olduğunu göstərir.

Qanunvericiliklə Sülh siyasəti yoxsulluqdan ən çox təsirlənən 170 əyalətdə inkişafa doğru dəyişikliklər yaradır. Bundan əlavə, Hökumət insan hüquqları müdafiəçilərinin və sosial liderlərin müdafiəsini gücləndirir.

2019-cu ildə iqtisadiyyatımız beş il ərzində ən yüksək artım göstərdi və 615 min kolumbiyalı yoxsulluqdan çıxdı.



**İVAN DUKE MARKES**
**Respublikanın Prezidenti**
**2018-2022-ci illər üzrə**

- **Ərazi:** 1.141.748 kvadrat kilometr və Karib hövzəsi və Sakit okean boyunca sahil və dəniz əraziləri.
- **Əhalisi:** 48,258,494 nəfər
- **Rəsmi dil**:İspan
- **Yerli dillər:** 68 (850.000 nəfər danışır).
- **Etnik qruplar:** yerli, Afro-Kolumbiya, Raizales, ROM (qaraçı).
- **Qonşu ölkələr:** Braziliya, Ekvador, Peru, Panama və Venesuela.

### Çətinliklərini dəf etməyə və gələcəyinə nikbinliklə baxan bir ölkə.

➤ Müəssisələrimizə güvənmək, xalqımızın gücü və inkişaf sahələrimizin və şəhərlərimizin zənginliyi bizi çətinliklərlə mübarizə aparmağa və gələcəyə nikbin baxmağa təşviq edir.

➤ Narkotik alveri kimi qanunsuz ticarətin qarşısını almaq üçün ədalət və mübarizə sistemlərimizi daha da möhkəmləndiririk.

➤ Hal-hazırda region miqrasiya böhranı ilə qarşı-qarşıyadır və bunun nəticisə kimi Kolumbiyaya üz tutmuş bir milyindan çox Venesuelalı miqrantı səxavətli bir siyasətlə qarşılamışdır. Bu böhranı aradan qaldırmaq üçün beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayırıq və buna görə ümid edirik.

➤ Bundan başqa, bu il bizi sağlamlığımız ilə sınasa da bunun öhdəsindən də uğurlu bir şəkildə gələcəyik.

➤ Sosial Qanunun aliliyi

➤ Unitar Respublika

➤ 32 Departament (Böyük miqyaslı regionlar)

➤ Latin Latın Amerikasının 3-cü ən çox əhalili ölkəsi

➤ 500 min nəfərdən çox əhalisi olan 10 inkişaf sahəsi

➤ 20-dən çox UNESCO irsi

➤ 700 –dən çox bayram və karnavallar

## Kolumbiyanın İqtisadiyyatı

➤ 2019-cu ildə ÜDM-da 3,3%-lik artım (328 milyard dollar).

➤ Adambaşı ÜDM - 6.498 ABŞ dolları və 2019-cu ildə inflyasiya dərəcəsi 3.8%.

➤ 2019-cu ildə 39 489 milyard dollarlıq ixracat və 50 270 milyard dollarlıq idxal.

➤ Qəhvə məhsulu üzrə dünyada üçüncü və güllər üzrə ikinci ən böyük ixracatçı ölkədir.

➤ Meyvələrin müxtəlifliyi və ən yaxşı zümrüdləri olan ölkə.

➤ Latın Amerikasında investisiyaların daxil olduöu üçüncü ölkə.

➤ Latın Amerikasında investisiyaların daxil olduöu üçüncü ölkə.

➤ Sərbəst ticarət sazişləri nəticəsində 60-dan çox ölkəyə giriş.

➤ İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Sakit Okeanı Alyansı, Ümumdünya Ticarət Təşkilatı, And Ölkələri İcması və digərlərinə üzvlüyü olan dövlət.

### Kolumbiya - Xarici İnvestisiyaların Məkanı




**Mənbə: BMT-nin Ticarət və İnkişaf Konfransı, Dünya İnvestisiya Hesabatı 2019**

# KOLUMBİYA MÜXTƏLİFLİKDİR

## Möhtəşəm Turizm Məkanı

Kolumbiya gözəl mənzərələrə, coğrafiyasının müxtəlifliyindən irəli gələn məkanlara sahibdir. Ziyarətçilər buraya gələrək eyni ölkədə Amazon yağışlı meşələrinin coşğunluğu, tropik mənzərənin gözəllikləri, And dağları zirvələrinin əzəməti və Atlantik sahili və Sakit Okeanın evakuativ mənzərələri ilə heyran ola bilərlər.

Hər şəhər ilbəil minlərlə turisti özünə cəlb edən heyrətamiz məkandır. Müstəmləkə dövrlərinə aid memarlığını, evlərini, küçələrini və onu əhatə edən tarixi müdafiə divarlarını qoruyub saxladığı üçün YUNESKO tərəfindən Dünya İrsi siyahısına daxil edilən Kartaxena de Indias; ilin hər fəslində kofenin yetişdirildiyi Kolumbiyanın kofeçilər zonası; dəniz boyu uzanan San Katalina, San Andres və Providensiya; və əlbətdəki, bu siyahıya dünyaca məşhur restoranların, muzeylərlə dolu olan meydanların olduğu ölkənin paytaxtı və müstəmləkə memarlığının varisi olan Boqotanı da bura əlavə etmək olar.

Kolumbiya inanılmaz müxtəliflik və cazibədarlığın ahəngliyi ilə sintez olduğu tropik bir ölkədir. Müxtəlif coğrafiyası, sirləri və sərgüzəştləri ilə dolu tarixi, xalqı və mədəniyyətləri əsrlər boyu dünyanı valeh edib.

Mükəmməl qəhvəsi və zümrüdlərinin saflığı ilə məşhur olan Kolumbiya El Dorado əfsanəsinin və Makondonun sehrli aləminin ərazisidir.

Ziyarət etmək üçün internet saytları:
http://www.colombia.travel/es
http://www.colombia.co/

## *Tarixi şəxsiyyət*



**Simon Bolivar**
(1783-1830)

Kolumbiyalılar olaraq millətimizin formalaşması və cümhuriyyətimizin təməlini qoyduğu üçün borclu olduğumuz siyasi və hərbi dahi. Onun ictimai və siyasi ideologiyası Amerika vicdanının oyanmasına və bununla da Cənubi Amerika xalqlarının suveren özünü tanıma iradəsinin formalaşmasına böyük təkan verdi. Kriollo, abarigenlər və zənci tayfalarının üsyanlarına rəhbərlik etmişdir və Yeni Qranada (hal-hazırki Kolumbiya və Panama), Venesuela, Ekvador, Peru və Boliviyanı azad etmişdir. Bir hökumdar kimi, Bolivar, tükənməz enerjisini və dahisini böyük bir millətin xəyalını reallaşdırmağa həsr etdi.Kolumbiya və amazoniya ölkələrinin xalqlarının birləşməsindən yaranan bir dövlətdir.

2020-ci ilin 8 iyul tarixində And Ölkələrinin Prezidentlərinin Şurasındakı Kolumbiyanın bu təşkilata sədrliyi əldə edən zamankı çıxışında Prezident, İvan Duke Bolivarı bu sözlər ilə yad etmişdir:

*"(...) bizim Xilaskarımız, Bolivarizmin həqiqi, əsil memarı, millətlərin inteqrasiyasını müdafiə edən,sarsılmaz və qüsursuz prinsiplərdə möhkəmlənmiş ümumi iş arzusunu müdafiə edən. (...) Bu arzu əsl arzudur. Bu o arzudur ki, millətlərimiz arasında ortaq maraq üstünlük təşkil etməlidir, ən çox ehtiyac sahiblərinə xidmət göstərməlidir, və əlbətdə ki, azad ticarət və azad müəssisə prinsiplərinə əsaslanmalıdır. Və, bu ehtiyac sahibi olan insanlar üçün imkanların daha da asanlaşdırılmasında özünü əks etdirir. Və bu Bolivarian anlayışının təməlidir (...) ".*

## 2019 –Turizmdə Rekordlar ilə yaddan qalan bir il

- 2019-cu ildə 4 milyondan çox ziyarətçi qəbul edərək yüksək göstərici ilə yadda qaldı. Bu 2018 ilə müqayisədə 2.7% artım deməkdir.
- Otelçilik və turizm 57,8% -ə çatdı.
- Turizm agentliklərinin gəlirlərində 3.7% artım ilə rekord bir göstərici.
- ABŞ Kolumbiyaya səyahət edən ölkələr sırasında 22% iştirak payı ilə birinci yeri tutur.
- Peru və Fransadan ziyarətçilərin sayında müvafiq olaraq 19% və 12% -lik artım müşahidə edildi.



## Öz Biomüxtəlifliyi ilə seçilən bir ölkə



Birləşmiş Millətlər Təşkilatının Bioloji müxtəliflik haqqında Konvensiyasına görə, Kolumbiya dünya miqyasında biomüxtəlifliyin 70% -i təşkil edən 19 ölkələr arasında ərazisinin yalnız 10%.ni təşkil edən nəhəng müxtəlifliyə malik bir ölkə kimi tanınır.

- 1932 növ quş cinsinə görə dünyada birinci ölkə.
- Orxideya gülünə görə ikinci ölkə.
- Bitkilərdə, amfibiyalarda və kəpənəklərdə ikinci ölkə.
- Palma və sürünənlər üzrə üçüncü ölkə.
- Məməli heyvan üzrə dördüncü ölkə.
- Ümumilikdə, 54 000 digər növ canlılar qeydiyyata alınıb.